**AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI**

**QƏRAR**

**№ 3-27/3-7-1/2026**

**Bakı şəhəri**

**12 yanvar 2026-cı il**

**Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2011-ci il 14 fevral tarixli 16/Ü nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2011-ci il 16 fevral tarixli 4119 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış “Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaq doldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında**

“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 280-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 539 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 dekabr tarixli 762s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2011-ci il 14 fevral tarixli 16/Ü nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2011-ci il 16 fevral tarixli 4119 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış “Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaq doldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Qaydası”nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
2. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| **Kollegiyanın sədri, rəqəmsal inkişaf və nəqliyyat naziri** | **Rəşad Nəbiyev** |

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2026-cı il 12 yanvar tarixli 3-27/3-7-1/2026 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2011-ci il 14 fevral tarixli 16/Ü nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2011-ci il 16 fevral tarixli 4119 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış “Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaq doldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin**

**verilməsi Qaydası”nda edilmiş dəyişikliklər:**

1. Qaydanın adı aşağıdakı redaksiyada verilsin:

“Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin (dayanacaq məntəqələri istisna olmaqla) yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Qaydası”.

2. 1.1-ci bənd üzrə:

2.1. “avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaq doldurma məntəqələrinin” sözləri “dayanacaq məntəqələri istisna olmaqla, avtomobil nəqliyyatının digər infrastruktur obyektlərinin” sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Yeraltı keçidlərin, metro çıxışlarının və velosiped zolaqlarının yerləşdirilməsinə, o cümlədən təyinatının avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (bundan sonra – Agentlik) tərəfindən bu Qaydanın tələblərinə uyğun olaraq həyata keçirilir.”.

3. 1.3-cü bənddə “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (bundan sonra – Agentlik)” sözləri “Agentlik” sözü ilə əvəz edilsin və həmin bənddən “, Bakı şəhərinin inzibati ərazisində avtovağzallara (avtostansiyalara), yeraltı keçidlərə, metro çıxışlarına və velosiped zolaqlarına münasibətdə isə Bakı Nəqliyyat Agentliyi (bundan sonra - BNA)” sözləri çıxarılsın.

4. 3.1-ci və 3.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“3.1. Ərizə aidiyyəti üzrə Agentliyə və İdarəyə daxil olduqdan sonra qeydə alınır, baxılır, təqdim edilən sənədlərdə çatışmazlıqlar (bu Qaydanın 2.1-1-ci bəndinin müddəaları nəzərə alınmaqla) və ya imtina üçün əsas olmadıqda, qeydə alındığı gündən başlayaraq 30 gündən gec olmayaraq rəy verilməsi haqqında qərar qəbul edilir.”;

“3.4. Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin yerləşdirilməsi yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasının məqsədəuyğunluğu barədə rəyin verilməsindən Agentlik və İdarə tərəfindən aşağıdakı hallar aşkar edildikdə imtina edilə bilər:”.